Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Aprel 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## BİZİM ƏSAS MƏQSƏDLƏRİMİZDƏN BİRİ HAZIRDA İXRACIMIZI ŞAXƏLƏNDİRMƏKDİR.

Biz iqtisadiyyatımızı artıq müəyyən dərəcədə şaxələndirə bilmişik. Hazırda neft və qaz ümumi daxili məhsulun yarıdan azını təşkil edir. Lakin ixracımızın təxminən 95 faizi neft və qazdır. Beləliklə, bizim əsas məqsədlərimizdən biri hazırda ixracımızı şaxələndirməkdir. Bu, asan olmayacaq. Çünki dediyim kimi, qaz hasilatı və ixracı artacaq. İqtisadiyyatın digər sahələrində ixrac üçün bizə bazarlar lazımdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 23 aprel 2024-cü il tarixində ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2024-cü ilin yanvar-mart ayları ərzində 6 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ixrac 673,7 milyon ABŞ dolları təşkil etmişdir

2024-cü ilin I rübü ərzində Azərbaycanın ümumi ixracı **6 milyard ABŞ** dolları, qeyri-neft sektoru üzrə ixrac isə **673,7 milyon ABŞ** dolları təşkil edib. 2024-cü ilin yanvar-mart ayları ərzində yeyinti məhsulları üzrə ixrac **195,3 milyon ABŞ** dollarına bərabər olub.

2024-cü ilin 3 ayı ərzində pambıq ixracı 47%, meyvə-tərəvəz ixracı 15,3%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 7,2%, üzvi kimyəvi birləşmələrin ixracı isə 2,1% artıb.

2024-cü ilin ilk rübü ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **17,8%** artaraq **210,7 milyon ABŞ** dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər **7,8%** artaraq **58,8 milyon ABŞ** dolları təşkil edib.

2024-cü ilin yanvar-mart ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**56,5 milyon ABŞ** dolları) birinci olub. Bu

siyahıda pomidor (tomat) (**45 milyon ABŞ** dolları) ikinci, elektrik enerjisi (**40,6 milyon ABŞ** dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-mart ayları ərzində Rusiya Federasiyasına **225,5 milyon ABŞ** dolları, Türkiyəyə **150,3 milyon ABŞ** dolları, Gürcüstana **59,9 milyon ABŞ** dolları, Ukraynaya **24,2 milyon ABŞ** dolları, Qırğızıstana isə **20,8 milyon ABŞ** dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Cari ilin mart ayının qeyri-neft ixracı **218,7 milyon ABŞ** dolları olub. Yeyinti məhsulları üzrə ixrac **11,5%** artımla **58,2 milyon ABŞ** dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **160,5 milyon ABŞ** dolları təşkil edib.

2024-cü ilin mart ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**71,1 milyon ABŞ** dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**53 milyon ABŞ** dolları) ikinci və Gürcüstan (**16,9 milyon ABŞ** dolları) üçüncü olub.

2024-cü ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**22,9 milyon ABŞ** dolları) birinci, pomidor (tomat) (**15 milyon ABŞ** dolları) ikinci və ilkin formalı polipropilen (**12 milyon ABŞ** dolları) üçüncü olub.



2024 İXRAC İCMALI aprel

# 2024-CÜ İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



2024 İXRAC İCMALI aprel

# 2024-CÜ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2023 2024



# 2024-CÜ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024 İXRAC İCMALI aprel

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

2023/2024 +17,8%

210,7 mln $



2023/2024 +22,1%

151,9 mln $

58,8 mln $

2023/2024 +7,8%

# 2024-CÜ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI aprel



# 2024-CÜ İLİN MART AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



2024
İXRAC İCMALI
aprel

# 2024-CÜ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
|---|---|---|
| Pambıq mahlıcı | 56,5 | 31,3 |
| Tomat (pomidor) | 45 | 31,2 |
| Elektrik enerjisi | 40,6 | 281,1 |
| Meşə fındığı | 31,6 | 37 |
| Xurma | 27,7 | 14,7 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 27,1 | 8,4 |
| Karbamid | 26,9 | 27,4 |
| İlkin formalı propilen sopolimerləri | 24,8 | 18,3 |
| Metanol (metil spirti) | 22,8 | 21,5 |

# 2024-CÜ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
|---|---|---|
| Polimerləşmədə ilkin formalı maddələr | 22,5 | 18,8 |
| Qızıl | 18,5 | 25,7 |
| Alma | 16,5 | 14,3 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 16,4 | 22,6 |
| İlkin formalı polipropilen | 15,2 | 36 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 2500 $sm^3$-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 12,9 | 9 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 $sm^3$-dən çox olan qığılcımla alışan DYM-li | 11,9 | 3,1 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 11,8 | 20,2 |
| Sement klinkerləri | 8,3 | 6,3 |

# 2024-CÜ İLİN MART AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI aprel

| | 2024 | 2023 |
|---|---|---|
| Pambıq mahlıcı | 22,9 | 8,1 |
| Tomat (pomidor) | 15 | 12,1 |
| İlkin formalı polipropilen | 12 | 12,4 |
| Qızıl | 11,7 | 10,6 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 11,1 | 6 |
| Meşə fındığı | 9,2 | 13,7 |
| Polimerləşmədə ilkin formalı maddələr | 8,7 | 6,4 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 7,5 | 7,9 |
| Metanol (metil spirti) | 7,1 | 5,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



2024-cü ilin yanvar-mart ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “P-Aqro” MMC, Muradova Sahibə Səlimət qızı, “My Fruit” MMC, “Technopack” MMC, “Mors Trading” MMC, “Baku Steel Company” QSC, “Soil Boons” MMC, “Khan-El” MMC, “Atena” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azərenerji” ATSC, “Azəralüminium” MMC, “AzerGold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, “Azəripək” MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti MMC, “Azərbaycan Dəmir Yolları” QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI aprel



# 2024-CÜ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI aprel



3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") **4,7 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-mart aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın **47 ölkəsinə 4,7 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos" xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2024-cü ilin mart ayında isə "Azərkosmos" dünyanın **43 ölkəsinə 1,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-mart ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **1,5 milyon ABŞ** dolları ilə Birləşmiş Krallıq, **966,8 min ABŞ** dolları ilə Lüksemburq, **339,8 min ABŞ** dolları ilə BƏƏ, **208,6 min ABŞ** dolları ilə Pakistan və **197,4 min ABŞ** dolları ilə Almaniya qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-MART AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 4,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

Xidmət ixrac etdiyi 5 əsas ölkə



4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-mart ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 545,9 milyon manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin yanvar-mart aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **545,9 milyon manat**, yalnız mart ayında isə **173,7 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI aprel

| | 2022 | 2023 | 2024 |
| --- | --- | --- | --- |
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 549,8 mln | 551,9 mln | 545,9 mln |

Mərkəzi Bankın təqdim etdiyi statistika əsasında

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin aprel ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 38,8 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2024-cü ilin aprel ayı ərzində **162 müraciət** daxil olub. Müvafiq dövr ərzində **394 ədəd** sertifikat (152 ədəd mənşə, 2 ədəd baytarlıq, 215 ədəd fitosanitar, 24 ədəd CİTES, 1 ədəd mədəni sərvətin mühafizəsi şəhadətnaməsi) təqdim edilib.

2024-cü ilin aprel ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **38,8 milyon ABŞ** dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metalar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi cecəsi, qida əlavəsi, dondurma, dondurma vaflisi, süd, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar şirəsi, üzüm şirəsi, qarışıq şirələr, narşərab, albalı tingi, əridilmiş heyvan piyi, pələng, tar, akvakultur üsulu ilə yetişdirilmiş balıqların

kürüsü, pomidor, tibbi zəli, su nasosu, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, İtaliya, Rusiya, Türkiyə, Ukrayna, Türkmənistan, Almaniya, ABŞ, Avstriya, İspaniya, İsrail, Macarıstan, Moldova, Niderland, Rumıniya, Polşa, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Malayziya, BƏƏ, Əfqanıstan, Fransa üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN APREL AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI aprel



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)

**55,1%**
Fitosanitar sertifikatı

**38,2%**
Mənşə sertifikatı

**6,2%**
CİTES sertifikatı

**0,4%**
Baytarlıq sertifikatı

**0,1%**
Mədəni sərvətin mühafizəsi şəhadətnaməsi

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
## “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat